**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.66

# NAXÇIVAN SASANİLƏRİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

# NAKHCHIVAN UNDER SASANIANS RULE

**Kübra ƏLİYEVA***

**XÜLASƏ**

Məqalədə III-VII əsrlərdə Naxçıvanın Sasani imperiyasının tərkibinə daxil olması və regionun siyasi, iqtisadi və hərbi həyatında mühüm rol oynamasından bəhs olunur. Mənbələr Naxçıvanın bu dövrdə strateji inzibati mərkəz və Sasani canişinlərinin iqamətgahı olduğunu, həmçinin burada müxtəlif hökmdarların adına sikkə zərb edildiyini təsdiqləyir.

Lakin əlverişli mövqeyi səbəbindən Naxçıvan Sasani-Roma və Sasani-Bizans müharibələrinin əsas döyüş meydanlarından birinə çevrilmişdir. Bu münaqişələr və şimaldan gələn hun və xəzər tayfalarının hücumları bölgədə kütləvi qırğınlara, yaşayış yerlərinin dağıdılmasına və əhalisinin sürgün edilməsinə səbəb olmuşdur. Xüsusilə, II Şapur və imperator İraklinin yürüşləri bölgəyə ciddi ziyan vurmuşdu, lakin bu zaman Naxçıvan imperiyanın şimal sərhədlərinin müdafiəsindəki strateji əhəmiyyətini qoruyub saxlamışdır. Nəticədə, Sasanilər dövründə Naxçıvan bölgəsi mühüm hərbi-strateji mövqeyi ilə imperiyanın əsas inzibati mərkəzlərindən biri olmuşdu.

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, Sasani imperiyası, xarici hücumlar, sərhədlər.*

**ABSTRACT**

The article examines the incorporation of Nakhchivan into the Sasanian Empire between the third and seventh centuries and its significant role in the political, economic, and military life of the region. Historical sources indicate that during this period Nakhchivan served as an important administrative center and the residence of Sasanian governors. Coins were also minted there in the names of various rulers.

However, owing to its favorable geographical position, Nakhchivan became one of the principal battlefields of the Sasanian-Roman and Sasanian-Byzantine wars. These conflicts, together with incursions by the Huns and Khazars from the north, resulted in mass killings, the destruction of settlements, and the deportation of the local population. In particular, the campaigns of Shapur II and Emperor Heraclius inflicted severe damage on the region. Nevertheless, Nakhchivan preserved its strategic importance in the defense of the empire's northern frontiers. Thus, owing to its strategic military location, Nakhchivan became one of the principal administrative centers of the Sasanian Empire.

**Keywords:** *Azerbaijan, Nakhchivan, Sasanian Empire, foreign invasions, borders.*

## GİRİŞ

Tarixdən məlumdur ki, III əsrdə indiki İran ərazisində yeni bir imperiya – Sasanilər dövləti (226-651) formalaşmışdır. Bu imperiya keçmiş Parfiya (Arşakilər) dövlətinin əraziləri üzərində təşəkkül tapmışdır. III əsrin ortalarına doğru Sasani imperiyası Atropatenanı özündən asılı vəziyyətə salaraq imperiyasının tərkibinə tabe edilmiş vilayətlər sırasına daxil etmişdir. Mənbələrin verdiyi məlumata görə, Sasani dövlətinin banisi I Ərdəşir (224-242) özünə tabe edilmiş ərazilərin idarəçilərinə "şah" titulunu verirdi [İbn Xordadbeh, 1889: 13; Bünyadov, 2007: 47]. Azərbaycan uzun müddət Sasani imperiyasının hakimiyyəti altında olmuş və imperiyanın sosial-iqtisadi və siyasi həyatında mühüm rol oynayan əsas bölgələrdən birinə çevrilmişdi. Bütövlükdə Qafqaz regionu Sasani dövlətinin xarici siyasətində və hərbi-strateji planlarında mühüm mövqeyə malik idi. Bu səbəbdən də Sa-

*AMEA Naxçıvan Bölməsi, e-mail: kubra.1aliyeva@gmail.com.
ORCID: 0009-0005-7620-3255

sani-Roma və Sasani-Bizans müharibələri dövründə Azərbaycan ərazisi tez-tez hərbi əməliyyatların aparıldığı döyüş meydanına çevrilmişdir. Bundan əlavə, Sasani dövlətinə şimaldan – Dərbənd keçidi vasitəsilə yönələn köçəri tayfa axınları ilk növbədə Azərbaycan ərazisində qarşılanmış, bu bölgə həmin tayfaların yerləşdikləri, talan və dağıntılar törətdikləri əsas məkanlardan biri olmuşdur.

**NAXÇIVAN SASANİ İDARƏÇİLİYİ İLLƏRİNDƏ**

Naxçıvan e. ə. III əsrdən etibarən Qafqaz Albaniyasının tərkibinə daxil olan ərazilərdən biri olmuşdur. Professor Vaqif Piriyev qeyd edirdi ki, Naxçıvan əvvəlcə Qafqaz Albaniyasının Araksena, sonralar isə Sisakana vilayətlərinin tərkibində yer almışdır. Sisakan adı Sünik toponiminin İran dillərində işlədilən forması hesab olunur. Araksena Arazbar adının yunan müəllifləri tərəfindən işlədilən formasıdır. Arazbar vilayəti isə Araz çayının hər iki sahilində yerləşən vilayətləri əhatə edirdi [Vəlişov & Kazımlı, 2023: 242]. Mənbələrdə Sünikin inzibati mərkəzinin Naxçıvan şəhəri olduğu göstərilir. Sünik bəzi dövrlərdə Atropatena dövlətinin tərkibinə daxil edilsə də, əsasən Qafqaz Albaniyasının vilayəti olmuşdur. Erkən orta əsr mənbələrində Naxçıvan şəhəri Basfuracan adı ilə də qeyd olunurdu. Orta əsr müəllifi Yaqut əl-Həməvi bildirirdi ki, Basfuracan Arran ölkəsinin baş şəhərlərindən biri olmuş və bu ad Nəşavaya da şamil edilmişdir [əl-Həməvi, 1906: 181; Orbeliani, 17; Piriyev, 2006: 46].

Sasani imperiyasının yaradıcısı I Ərdəşir sonuncu Parfiya hökmdarını məğlub edərək onun əraziləri üzərində mərkəzləşdirilmiş yeni bir dövlətin əsasını qoymuşdu. Tarix səhnəsində Sasani imperiyası kimi tanınan bu dövlət qısa müddət ərzində regionun ən güclü siyasi qurumlarından birinə çevrilmişdi. Sasani imperiyası yaranandan qısa zaman sonra Atropatenanı öz hakimiyyəti altında birləşdirmişdir. Lakin Albaniya müəyyən müddət ərzində Sasani dövlətinin birbaşa nəzarətinə daxil edilməmişdir. Bununla belə, Sasani şahənşahı I Şapurun Nəqşi-Rüstəmdəki kitabəsində Albaniyanın adı tabe vilayətlər arasında göstərilmişdir.

Bəzi ərəb mənbələrində Naxçıvan şəhərinin salınması Sasani dövrünə aid edilir. Dövrün əsas mənbələrindən olan İbn əl-Fəqih, əl-Bəlazuri və başqa ərəb müəllifləri öz əsərlərində Naxçıvanın Xosrov I Ənuşirəvan tərəfindən salındığını qeyd edirlər [Hacıyev & Kəlbizadə, 2018: 44]. Bununla yanaşı, bəzi fars mənbələrində isə şəhərin əsasının qoyulmasını Sasani sərkərdəsi Bəhram Çubinlə (590-591) əlaqələndirirlər. Həmin mənbələrdə Bəhram Çubinin Qafqazda beş şəhər saldırdığı, onlardan birinin isə Naxçıvan olduğu qeyd edilmişdi. Orta əsr müəllifi Həmdullah Qəzvini də Naxçıvan şəhərinin Bəhram Çubin tərəfindən salındığını göstərmişdir. Həmçinin, onun əlverişli coğrafi mövqeyini və gözəlliyini xüsusi vurğulayaraq, Naxçıvanı "dünyanın bəzəyi" (Nəqşi-cahan) adlandırırdı [Məmmədov,1962: 48-49; Qəzvini, 1919: 90]. Orta əsr müəllifi Yaqut əl-Həməvi qeyd edirdi ki, Nəşava Azərbaycanın qədim şəhərlərindən biridir. Yerli əhali onu Nəğcivan (Nəqcəvan) adlandırırdı [əl-Həməvi, 1906, s. 286]. Bununla belə, antik dövr müəlliflərinin əsərlərində Naxçıvan haqqında məlumatların yer alması şəhərin Sasanilərdən də əvvəl mövcud olduğunu göstərirdi. Bəzi antik və orta əsrlər müəllifləri Naxçıvan şəhərinin e. ə. 1539-cu ildə salındığını qeyd edirdilər [Baxşəliyev, Aliyev et al, 2008: 316]. Antik müəlliflərdən Klavdi Ptolemey "Coğrafiya" əsərində Naxçıvanın adını Naksuana (Naxuana) şəklində işlətmişdir [Ptolemey, 1562: 187; Məmmədov, 1977: 23]. İllərlə davam edən Sasani-Bizans və Sasani-Roma müharibələri nəticəsində Naxçıvan qarət, sürgün dağıntılara məruz qalmışdı. Sasani-Bizans müharibələrinin son mərhələsində imperator İrakli (610-641) Naxçıvana hücum edib, şəhəri dağıtmışdı. Bütün bunlara əsasən deyə bilərik ki, orta əsr müəllifləri Sasani şahlarının Naxçıvanı dağıntılardan sonra yenidən bərpa etməsini şəhərin əsasının qoyulması kimi təsvir etmişlər.

Numizmat və arxeoloq Y.Paxomovun verdiyi məlumata görə, Sasani mərzbanlarının iqamətgahları müəyyən dövrlərdə Dəbil şəhərindən Naxçıvana köçürülmüşdü [Məmmədov, 1962: 54]. Bu

fakt Naxçıvanın Sasani hakimiyyəti dövründə də siyasi və inzibati baxımdan mühüm mərkəzə çevrildiyini göstərir.

Sasani imperiyası formalaşdığı dövrdən etibarən Atropatena onun əsas strateji diqqət mərkəzlərindən biri olmuşdur. Atropatena və Albaniya yerləşdikləri coğrafi mövqeyə görə Sasanilər üçün xüsusi əhəmiyyət daşıyırdı. Bu ərazilər Roma və Bizans imperiyaları ilə aparılan hərbi-siyasi mübarizələrdə əsas strateji istiqamətlərdən biri hesab olunurdu. Digər mühüm amil isə Sasani dövlətinin rəsmi dini olan Zərdüştlüklə bağlı idi. Zərdüştliyin formalaşdığı əsas regionlardan biri Atropatena olmuş, bu ərazidə dinin ən mühüm məbədlərindən sayılan Adurquşnasp (indiki Təxt-i Süleyman arxeoloji kompleksi) yerləşirdi [Əliyarlı, 2007: 135; Khalifa-zadeh, 2024: 114-115].

Həmçinin Zərdüşt rahibi Kerdirin kitabəsində Zərdüşt rahiblərinin qeyri-İran vilayətlərinə göndərildiyi qeyd olunmuşdu. Bu vilayətlər sırasında Azərbaycan, Albaniya və Balasagun əyalətlərinin adları verilmişdi. Kerdirin kitabəsi Nəqşi-Rəcəbdə (Fars əyalətində Persopolun 3 km şimalında) yerləşir və o, Sasani imperiyasında yüksək rütbəli rahib olmuşdu [Daryaee, 2026: 38-39].

Naxçıvan Sasanilərin hakimiyyəti dövründə imperiyanın mühüm inzibati və iqtisadi mərkəzlərindən biri olmuşdur. Məlumdur ki, orta əsrlər dövründə zərbxanalar yalnız siyasi baxımdan etibarlı və strateji əhəmiyyətə malik şəhərlərdə fəaliyyət göstərirdi. Nəticə etibarilə Naxçıvanda zərbxananın mövcudluğu şəhərin Sasani dövləti daxilində xüsusi mövqeyə sahib olduğunu sübut edirdi. Arxeoloq-numizmat Y.Paxomov Sasani dövrünə aid tapılan pulların üzərində "Nax" və "Naxç" monoqramını oxumuş və bu sikkələrin Naxçıvan ərazisində zərb olduğunu qeyd etmişdir [Paxomov, 1959: 12]. Arxeoloji-numizmatik materiallardan aydın olur ki, Sasanilər dövründə təxminən iki əsrdən artıq müddət ərzində Naxçıvanda müxtəlif Sasani hökmdarlarının adına sikkələr zərb edilmişdir. Tapıntılar arasında Sasani hökmdarları I Xosrov (531-579), IV Hörmüz (579-590), Bəhram Çubin, II Xosrov Pərviz (591-628), II Qubad (628), II Ərdəşir (628-630), V Hörmüz (631-632) və III Yezdəgirdin (632-651) adına aid sikkələr xüsusi yer tutur. Bu fakt Naxçıvanın Sasani imperiyasının iqtisadi sisteminə inteqrasiya olunduğunu və uzun müddət ərzində mərkəzi idarəetmə strukturları ilə sıx əlaqədə olduğunu təsdiqləyir. Naxçıvanda "Naxç" monoqramlı sikkələrin zərb edilməsi I Xosrovun hakimiyyətinin 3-cü ilində (təxminən 533-534) başlamışdı. Həmçinin, IV Hörmüz və II Xosrovun hakimiyyəti illərində "Nax" monoqramlı sikkələr zərb edilmişdi [Paxomov, 1959: 11-12; Məmmədov, 1962: 55; Məmmədova, 2014: 260].

Sasani dövlətinin hakimiyyətdə olduğu müddət ərzində tabe etdiyi bölgələrin əhalisini sürgün edirdi. İşğal etdikləri ərazilərin əhalisinin müəyyən hissəsini Naxçıvana köçürülmüşdü. Bu köçürmələrdə sasanilərin bir neçə məqsədi var idi: Sasani dövlətinin dilini (pəhləvi) və dinini (zərdüştlük) yaymaq, hunların və bizanslıların hücumunda yerli hakimlərdən dəstək almaq [Kürçüoğlu, 2007: 19].

## NAXÇIVAN SASANİLƏRİN APARDIĞI MÜHARİBƏ İLLƏRİNDƏ

Sasani-Roma müharibələri Naxçıvanın siyasi, inzibati və demoqrafik inkişafına ciddi təsir göstərmişdir. Sasani şahənşahı I Şapurun (242-270) Roma imperiyası ilə 244-cü ildə bağladığı müqaviləyə əsasən Basfuracan vilayəti Sasani hakimiyyəti altına keçmişdi. Naxçıvan şəhəri Basfuracan vilayətinin əsas inzibati mərkəzi olduğundan, bu müqavilə nəticəsində şəhər də Sasani dövlətinin tərkibinə daxil edilmişdir [Məmmədov, 1962: 52].

I Şapurun ölümündən sonra Sasani-Roma münasibətləri yenidən gərginləşmiş və tərəflər arasında hərbi toqquşmalar başlamışdı. 283-cü ildə Sasani-Roma sərhədini aydınlaşdırmaq üçün sülh bağlandı. Beləliklə, Naxçıvan Sasani imperiyasının hakimiyyəti altında qaldı [Məmmədov, 1977: 29; Daryaee, 2026: 53]. II Şapurun (309-379) Qafqaza etdiyi yürüşlər zamanı baş verən Sasani-Roma müharibələrinin dağıdıcı təsirləri bölgə şəhərlərindən yan keçməmişdi. Mənbələrin verdiyi məlumata görə, II Şapurun Qafqaza yürüşü zamanı burada səkkiz şəhər dağıdılmışdı, Naxçıvan da həmin şəhərlər sırasında idi [Hacıyev, 2013: 150; Məmmədov, 1977: 29]. Bu yürüşlər nəticəsində əhali kütləvi

şəkildə yaşayış yerindən didərgin salınmış, bir hissəsi isə imperiyanın müxtəlif ərazilərinə sürgün edilmişdi. Bəzi tarixi ədəbiyyatlarda bu zaman Naxçıvandan təxminən 18 min nəfər əhalinin sürgün edildiyi qeyd olunmuşdu [Məmmədov, 1962: 53; Kürçüoğlu, 2007: 19]. Əhalinin sürgün olunaraq başqa bölgələrə köçürülməsi şəhərin sosial-iqtisadi həyatında uzunmüddətli durğunluq və geriləməyə səbəb olmuşdu.

IV əsrdə Albaniya Sasani imperiyasının vassal asılılığında olmuşdu. Lakin bu asılılıq münaqişə deyil, qarşılıqlı maraq əsasında qurulan dostluq münasibətləri çərçivəsində mövcud idi. Sasanilərlə Roma arasında baş vermiş Amid döyüşündə (359) Alban hökmdarı Urnayr iştirak edirdi. Ammian Marseli qeyd edirdi ki, Alban kralı onun sağ tərəfində dayanmışdı və rütbəcən ona bərabər idi [Marcellinus, 1894: 176]. Burada işarə edilən "O"-nun Sasani hökmdarı II Şapur olduğu güman edilir. Amid döyüşü sasanilərin qələbəsilə başa çatmış və Naxçıvanın da daxil olduğu ərazilər yenidən Sasani hakimiyyəti altına qaytarılmışdı.

Sasanilərin Qafqazda möhkəmlənməsi əvvəlcə Roma, daha sonra isə Bizans imperiyasının maraqları ilə toqquşmuşdu. Nəticədə əsrlərlə davam edən Sasani-Roma və Sasani-Bizans müharibələri baş vermişdi. Bu müharibələr əsasən Albaniya və İberiya əraziləri uğrunda aparılmışdır. Çünki tərəflər arasında bağlanan müqavilələrdə bölüşdürülən əsas strateji məkan məhz Qafqaz regionu idi.

Sasanilərlə Bizans arasında gedən son müharibənin (603-628) ilk mərhələlərində üstünlük Sasani şahənşahı II Xosrov Pərvizin tərəfində olmuş və Sasani ordusu uğurlu hərbi əməliyyatlar həyata keçirmişdi. Lakin onun nüfuzlu sərkərdələrindən olan Fərrux və Şahrvarazın hakimiyyətdən narazılığı müharibənin taleyinə ciddi təsir göstərmişdi. Həmin sərkərdələr həlledici mərhələdə Sasani ordusunu geri çəkmiş, bu Bizans imperatoru İrakliyə (610-641) Azərbaycan ərazilərinə hücum etmək imkanı yaratmışdı. Nəticədə İrakli 624-cü ildə əvvəlcə Dvinə, ardınca isə Naxçıvana və digər Azərbaycan torpaqlarına yürüş etmişdi. Bu dövrdə Sasani mərzbanının iqamətgahının Naxçıvanda yerləşməsi buranı əsas strateji hədəflərdən birinə çevirmişdi [Pourshariati, 2008: 152; Məmmədov, 1962: 56]. İraklinin Naxçıvana hücumu zamanı bölgədə genişmiqyaslı qırğınlar və dağıntılar törədilmişdi. Bununla yanaşı zərdüştiliyin ən mühüm məbədlərindən biri olan Adurquşnasp məbədi söndürülmüşdü [Bünyadov, 2007: 51]. Bizans qoşunlarının bölgəyə yürüşləri zamanı əsas hədəflərdən biri atəşpərəstlik məbədləri olmuş, bu dini mərkəzlər sistemli şəkildə dağıdılmışdır.

Sasani şahları Qafqazda təkcə Bizansla mübarizə aparmırdı, eyni zamanda, köçəri hun və alan tayfalarının hücumları da bölgənin siyasi və sosial həyatına ciddi təsir göstərmişdi. II Şapurun hakimiyyəti dövründə (309-379) hunların Cənubi Qafqaza hücumlarının qarşısının alınması istiqamətində müəyyən tədbirlər görülsə də, bu müdafiə yetərincə təsirli olmamışdı. I Qubadın (488-496) hakimiyyətə gəlməsindən sonra isə hunların bölgəyə yürüşlərinin qarşısını almaq məqsədilə daha ardıcıl və ciddi siyasət həyata keçirilmişdi. Nəticədə hunlar bölgədən sıxışdırılıb çıxarılmış, Gürcüstan və Arran yenidən Sasani hakimiyyəti altında birləşdirilmişdi. Ərəb müəlliflərinin verdiyi məlumatlardan aydın olur ki, I Qubad Arrana daxil olmuş, Şirvanla Araz çayı arasındakı əraziləri öz nəzarəti altına almışdı [Hacıyev, 2013: 151].

Sasani şahları imperiyanın şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə mütəmadi olaraq bu istiqamətdə hərbi yürüşlər təşkil edirdilər. Şimaldan gələn hun tayfa axınları Sasani dövləti üçün əsas təhlükə mənbələrindən biri hesab olunurdu. II Yezdəgird (438-457) hakimiyyəti dövründə əsas diqqətini Xorasana yönəltsə də, şimal təhlükəsinin qarşısını almaq məqsədilə Albaniyaya hərbi yürüş etmişdi. II Yezdəgirdin ölümündən sonra hakimiyyətə onun ardıcıl olaraq iki oğlu gəlmişdi. Lakin onların aralarında baş verən hakimiyyət uğrunda mübarizə Sasani dövlətini ciddi şəkildə zəiflətmişdi. Yaranmış siyasi böhrandan istifadə edən Albaniya hökmdarı müstəqilliyini elan etmişdi [Daryaee, 2009: 22, 25]. Mənbələrin məlumatına əsasən qeyd etmək olar ki, xəzərlər VI əsrin 30-cu illərində Azərbaycan ərazilərinə hücumlar etmiş və Naxçıvan bölgəsində də məskunlaşmışlar. Bu zaman Arran, Curzan, Basfuracan (Naxçıvan) və Sisacan (Sünik) əraziləri üzərində Yəzid Balaş adlı canişinin hakimiyyətdə olmuşdur. Bu bölgədə türk tayfalarının adı ilə bağlı bir sıra toponimlərin

mövcudluğu diqqət çəkir. Belə ki, Şahbuz rayonundakı Şada, Şərur bölgəsində Qarxun və Ordubad ərazisində Vənənd toponimlərinin bulqar, hun və xəzər sərkərdələrinin adları ilə bağlı olduğu ehtimal edilir [Hacıyev, 2013: 152; Səfərli, 2021: 168]. Sasani hökmdarı IV Hörmüzün hakimiyyəti zamanı həm Bizans, həm də Xəzər xaqanı onun üzərinə yürüş etdi. Xəzər xaqanının yürüş etdiyi yer əsasən Azərbaycan idi. Belə ki, IV Hörmüz Azərbaycan valisi Bəhram Çubinə (mənbədə "Şubin" olaraq qeyd edilib) məktub yazaraq Xəzər xaqanına qarşı mübarizəyə çağırdı. Bəhram Çubinin rəhbərlik etdiyi qoşun Xəzər xaqanını məğlub etdi [Dinəvəri, 1960: 79-81].

Orta əsr müəllifi Musa Kalankatuklunun Sünik knyazlığı ilə bağlı qeydləri diqqət çəkir. Müəllifin məlumatına görə, Sünik knyazı Andoka II Şapura qarşı mübarizə aparmışdı. II Şapur Cənubi Qafqazda yerli hakimlərin zadəgan statusunu təsdiqlədiyi zaman Andokaya on dördüncü rütbə verilmişdi. Bu rütbədən narazı qalan Andoka Sasani şahına qarşı çıxış etmişdi. Hadisələrin mürəkkəbləşdiyi bir dövrdə hunlar şimaldan hücum edərək Çola vilayətini keçmiş və Atropatenaya çatmışdı. Hunlara qarşı aparılan mübarizə zamanı II Şapur bütün yerli hakimləri səfərbərliyə çağırsa da, Andoka bu mübarizəyə qoşulmamış, əksinə Mədainə (Ktesefon) hücum edərək xəzinə ilə geri qayıtmışdı. II Şapur qarşısında müqavimət göstərmək imkanlarının məhdud olduğunu anlayan Andoka xəzinələrini Şalat məbədində gizlədərək öz yurdunu tərk etmişdi. Mədain hadisələrindən xəbər tutan II Şapur Sünik üzərinə yürüş etmiş, əhalinin sığındığı qalanı bir müddət mühasirədə saxlamışdı. Mühasirə davam etdiyi vaxt Andoka yaranmış fürsətdən istifadə edərək Romaya qaçmış və ömrünün sonunadək orada yaşamışdı. Sonradan hunların Sasanilər üzərinə yeni hücumları zamanı Andokanın oğlu Babik (Babək) hunlara qarşı mübarizədə fərqlənmişdi. Babikin bu fəaliyyəti II Şapur tərəfindən müsbət qiymətləndirilmiş və Sünikin idarəsi ona tapşırılmışdı [Kalankatuklu, 2006: 31-34; Hacıyev, 2013: 150-151].

Sünik vilayətinin mərkəzə tabe olmaması haqqında mənbələrdə bəhs olunmuşdur. Belə ki, Arşakilərin hakimiyyətində olduğu kimi, Sasani hakimiyyəti zamanında da Sünik vilayətindən ehtiyat edilirdi. Sünikin Sasani hakimiyyətinə tabe edilməsi müəyyən zaman tələb etmişdi. Həmçinin Sasani hakim nümayəndələri Sünik ordusundan ucqarların qorunmasında istifadə edirdi. Şimaldan gələn təhlükənin qarşısını almaq üçün Dərbənddə Sünik ordusundan müdafiə qüvvələri təşkil olunurdu [Məmmədova, 1993: 96]. Naxçıvanın da Sünik vilayətinin tərkibində olmasına əsasən deyə bilərik buradan olan döyüşçülər həmin vaxt Dərbəndin müdafiəsində iştirak edirdilər.

## NƏTİCƏ

Azərbaycanda, xüsusilə də onun Naxçıvan bölgəsində, Erkən orta əsrlər dövründə mürəkkəb və gərgin siyasi vəziyyət yaşanmışdı. III əsrdə Sasani imperiyasının formalaşması Cənubi Qafqazda mövcud olan siyasi tarazlığın dəyişməsinə səbəb olmuşdur. Sasani dövləti əvvəlcə Atropatenanı, qısa müddət sonra isə Qafqaz Albaniyası ərazilərini öz hakimiyyəti altına almışdı. Sasani idarəçiliyi dövründə Naxçıvan bölgəsi siyasi-inzibati baxımdan inkişaf mərhələsinə qədəm qoymuşdur. Məlum olduğu kimi, əlverişli strateji-coğrafi mövqeyinə görə Naxçıvan müəyyən dövrlərdə Sasani canişinlərinin iqamətgahı funksiyasını yerinə yetirmişdir. Şəhərin Sasani hakim dairələrinin diqqət mərkəzində olması onu xarici hərbi hücumlar üçün hədəfə çevirmişdi. Xüsusilə, Sasanilərin Roma və Bizans imperiyaları ilə apardıqları müharibələr zamanı Naxçıvan dəfələrlə dağıntılara məruz qalmış, lakin sonrakı mərhələlərdə yenidən bərpa edilmiş, inkişaf etmişdir.

## ƏDƏBİYYAT

Ammianus Marcellinus. (1894). *The Roman History*. George Bell& Sons.

Əliyarlı S.S. (Red.). (2007). *Azərbaycan tarixi üzrə qaynaqlar.* Çıraq.

Bünyadov, Z. (2007). *Azərbaycan VII-IX əsrlərdə*. Şərq-Qərb.

Clavdii Ptolemaei. (1562). *Geographia* (latınca). Apud Vincentium Valgrisium.

Daryaee, T. (2009). *Sasanian Persia: the rise and fall of an empire*. TJ International Ltd.

Daryaee, T. (2026). *Sasaniler.* Alfa yayınlar.

Əd-Dinəvəri (ərəbcə). (1960). *Əl-Əxbar ət-tival*.

Hamd-Allah Mustawfi of Qazwin (1919). *Nuzhat-al-Qulub* (translated G.Le Strange). E.J.Brill.

Ibn Khordadhbeh. (1889). *Kitab al-Masalik Wa`l-Mamalik*. E.J.Brill. (fransızca)

Kalankatuklu, M. *Albaniya tarixi*. (2006). Avrasiya.

Khalifa-zadeh, M. (2024) Sasanian Imperial Strategy and King Xusrō I Anōšīrvān's Reform: The Case of Ādurbādagān and Arrān (Caucasian Albania). *İnternational Journal of History*. 6 (1). p. 111-121.

Kürçüoğlu, E. (2007). *Nahçivan tarihi.* Güneş vakfı yayınları.

Məmmədov, R. (1962). Naxçıvanın qədim və orta əsrlər tarixindən. *Azərbaycan tarixinə dair materiallar:* 5-ci c. (s. 40-63).

Məmmədov, R. (1977). *Naxçıvan şəhərinin tarixi oçerki*. Elm.

Məmmədova, A. (2013). Naxçıvan zərbxanasının Milli Azərbaycan Tarixi Muzeyində qorunan sikkələri. *Milli Azərbaycan Tarixi Muzeyi-2013* (s. 259-260). Elm.

Məmmədova, F. (1993). *Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası*. Azərbaycan Dövlət nəşriyyatı.

Baxşəliyev V., Aliyev V. et al. (Red.). (2008). *Naxçıvan abidələri ensiklopediyası.* AMEA Naxçıvan Bölməsi.

Hacıyev I.M. et al (Red.). (2013). *Naxçıvan tarixi* (3 clddə, 1-ci cild). Əcəmi.

Hacıyev İ. & Kəlbizadə E. (Tərt.). (2018). *Naxçıvan tarixinə dair qaynaqlar*. Elm və Təhsil.

Orbelean, S. (1299). *History of the state of Sisakan* (translated Bedrosian, R). (History of the State of Sisakan. Step'annos Orbelean: Free Download, Borrow, and Streaming: Internet Archive)

Paxomov, E.A. (1959). *Monetnye klady Azerbaydzhana i drugikh respublik, kraev i oblastey Kavkaza* (Vypusk 8) (rusca). Izdatel'stvo Akademii Nauk Azerbaydzhanskoy SSR.

Piriyev, V. (2006). *Azərbaycanın tarixi coğrafiyası*. Müəllim.

Pourshariati, P. (2008). *Decline and fall of the Sasanian empire*. I.B.Tauris & Co Ltd.

Səfərli, H. (2021). *Ordubad bölgəsinin epiqrafik abidələri.* Əcəmi.

Vəlişov, N., & Kazımlı, T. (2023). *Həqiqətin onomastikası-2: Qarabağ və Şərqi Zəngəzur*. Maxofset.

Yaqut əl-Həməvi. (1906). *Məcmüəl əl-Buldan* (5 clddə, 1-ci cild) (ərəbcə). Mətbəət əs-Səadə.

Yaqut əl-Həməvi. (1979). *Məcmüəl əl-Buldan.* (5 clddə, 5-ci cild) (ərəbcə). Dar əl-Kutub əl-İlmiyyə.

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 03.06.2026**
**Son variant 12.06.2026**